# ZİRVƏYƏ DOĞRU



İlk Avropa Oyunlarının Azərbaycanda keçirilməsi dövlətimiz və xalqımız üçün böyük tarixi hadisədir. Vətənini, millətini sevən hər bir azərbaycanlı bu möhtəşəm beynəlxalq idman yarışının Azərbaycanda keçirilməsindən qürur hissi duyur. Azərbaycan bu tədbirə təkcə idman yarışı kimi yox, dostluq və əməkdaşlıq bayramı kimi hazırlaşıb. Qədim Atəşgah məbədində dövlət rəhbəri İlham Əliyev tərəfindən yandırılan bu idman bayramının məşəli ölkəmizin zəngin mədəni irsini, nadir sivilizasiyalararası dialoq məkanı olduğunu dünyaya nümayiş etdirəcək əsl birlik və dostluq bayramı kimi tarixə düşəcək.

Hökm sürən ictimai-siyasi sabitlik, tolerantlıq, multikulturalizm dəyərləri, milli adətənənələr, ölkəmizin iqtisadi imkanları, xalqımızın yüksək humanist xarakteri, zəngin intellektual potensialı, geniş turizm imkanları Azərbaycanı ilk Avropa Oyunlarının keçirilməsi üçün ideal bir məkana çevirib. Odlar yurdumuzun qapıları minlərlə xarici turistin üzünə açılıb. Bu, mötəbər idman yarışı olmaqla yanaşı, həm də müstəqil ölkəmizin qazandığı sosialiqtisadi nailiyyətlərinin, siyasi nüfuzunun əyani bir göstəricisidir.

Azərbaycan bütün dünya üçün açıq ölkə olduğunu dəfələrlə dünyaya bəyan etmişdir. Bu gün siyasi-sosial kataklizmlər, müxtəlif fobiyalar fonunda birgəyaşayış, əməkdaşlıq nümunəsidir. Amma təəssüf hissi ilə qeyd etmək lazımdır ki, gecə-gündüz demokratiyadan, düzlükdən, ədalətdən dəm vuran bəzi dövlətlər və qurumlar demokratiya pərdəsi altında qeyri-demokratik addımlar atmaqla səmimi olmadıqlarını aydın göstərirlər. Ölkəmizin sivil, sürətli inkişafına qısqanclıqla yanaşırlar.

Onlar Azərbaycana qarşı qərəzli mövqedən çıxış edir, şər atmaqla öz məkrli niyyətlərinin iç üzünü açırlar. Amma həqiqətin bir üzü vardır. Mənfur, məkrli, düşmənlərimiz düşünmürlər ki, Azərbaycan Avropa və dünyanın bir parçası olmaqla yanaşı, formalaşmış milli şüuru olan ölkədir. Dərin tarixi kökləri olan Odlar diyarıdır. Atəşgah məbədindən alovlanan alov məşəli bütün dünyaya sübut etdi ki, bu millətin, xalqın qədimdən-qədim tarixi keçmişi vardır. Aprelin 26-dan alovlandırılan bu məşəl Azərbaycanın bölgələrinə qarış-qarış səyahət edir. Əslində bu, simvolik bir məna kəsb edir. Bölgədən-bölgəyə ötürülən bu estafet xalqımızın nə qədər dərin tarixi köklərə malik olduğunun göstəricisidir, azərbaycanlıların oda, torpağa müqəddəs bir varlıq kimi baxdıqlarının rəmzi mənasının daşıyıcısıdır.

Azərbaycan Prezidenti İlham Əliyevin 1997-ci ildə Milli Olimpiya Komitəsinin prezidenti seçildiyi vaxtdan bəri Azərbaycan idmanında yeni bir era başladı, bu gün Azərbaycan idmanı öz sözünü dünya arenalarında fəxrlə deyir. Qazanılan uğurlar, atılan addımlar mötəbər yarışlarda Azərbaycan bayrağının yüksəklərə ucalması, bir sözlə, bütün nailiyyətlərə görə biz cənab Prezidentimizə dərin minnətdarıq.

Tarixdə ilk Avropa oyunlarının Azərbaycanda keçirilməsi barədə qərar 8 dekabr 2012-ci ildə Romada baş tutmuş Avropa Olimpiya Komitəsinin 41-ci baş Assambleyasında qəbul edilib. Avropa Oyunlarının hər 4 ildən bir keçirilməsi planlaşdırılır. Bakıda keçiriləcək I Avropa Oyunlarına məsul olan Təşkilat Komitəsi Azərbaycan Prezidentinin təşəbbüsü ilə qurulub. Komitəyə Azərbaycanın birinci xanımı, Azərbaycan Milli Olimpiya Komitəsinin üzvü, Azərbaycan Milli Məclisinin deputatı, Heydər Əliyev Fondunun və Azərbaycan Mədəniyyət Fondunun prezidenti, YUNESKO və ISESKO-nun xoşməramlı səfiri Mehriban Əliyeva sədrlik edir. Bu seçim təsadüfi deyildi. Gənc Azərbaycan dövləti müstəqilliyinin ən qısa zamanında özünü dünyada sürətlə, innovativ inkişaf edən və idman dövləti kimi tanıdıb. London Yay Olimpiya Oyunlarında Azərbaycan tarixi qələbə — 10 medal qazandı. I Avropa Oyunlarının Bakıda keçirilməsi haqqında qərar Azərbaycanın beynəlxalq və Avropa Olimpiya hərəkatına sadiqliyinə, idman və mədəniyyət sahəsində reallaşdırdığı islahatlara, yaradılan infrasruktur və əldə edilmiş uğurlara verilən yüksək dəyərin ifadəsi olmaqla yanaşı, həm də mədəniyyətlərarası dialoq mərkəzi kimi özünü təsdiq etməsidir. Bu möhtəşəm tədbirin yüksək səviyyədə keçirilməsi Azərbaycanın sülhə, əməkdaşlığa, dostluğa yeni bir töhfəsidir.

"Bakı-2015" ilk Avropa Oyunları dünya ölkələrinin diqqət mərkəzindədir. Rusiya Federasiyası xarici işlər nazirinin müavini- stats- katib Qriqori Karasin Avropa Oyunları münasibətilə Azərbaycanı təbrik edib və deyib ki, bu mötəbər yarışlar dünyamiqyaslı dostluq bayramına çevriləcək. Bu sözlər təsadüfi deyil. Qədim Yunanıstanda Olimpiada keçirilən zaman bütün müharibələr, münaqişələr dayandırılardı, həyat, insanlar arasında münasibətlər tamam başqa cür, yeni məhrəm axara düşərdi, yarışlardakı qələbələr adi insanlara sevinc, müqəddəs duyğular bəxş edərdi. Dövlətinin birgəyaşayış, sülh tərəfdarı olduğunu təsdiq etmək üçün insanlar idman yarışlarında yüksək mədəniyyət nümayiş etdirərdilər. Q.Karasin ölkəmizin bu oyunların keçirilməsini haqq etdiyi barədə deyib: "Zənnimcə iyun ayında dünya birliyinin bütün diqqəti iki həftə ərzində Bakıya, bu oyunlara cəlb olunacaq. Təbii ki, biz öz idmançılarımıza azərkeşlik edəcəyik. Amma indiki halda Azərbaycana da azərkeşlik edəcəyik. Çünki bu, çox mürəkkəb, əhəmiyyətli və kompleks tədbirdir. Bakı oyunlarına uğurlar arzu edirəm".

Təsadüfi deyil ki, Rusiya Federasiyası Federal Mərkəzinin mətbu orqanı olan "Parlamentskaya qazeta" son nəşrində "Bakı-2015" I Avropa Oyunlarına həsr edilmiş "Olimpiya Bakısının rekordları" sərlövhəli məqalə dərc etmişdir. Müəllif bu böyük, məsuliyyətli tədbirin Bakıda keçirilməsini Azərbaycanın qazandığı uğurların nəticəsi kimi görür. Yazar qeyd edir ki, Bakı Avropa tarixinin yazılmasında iştirak edir. Yəni mahiyyətcə, doğrudan da, bu belədir. Avropa Oyunları öz axarını paytaxtımızdan götürür və irs kimi onun standartları davam edəcək. Bundan başqa, "Bakı-2015" Avropa Oyunlarının loqosunda bizim milli mədəniyyət nümunələrindən istifadə edilib. Alov, su, əfsanəvi Simurq quşu, xalı və nar elementləri. Ceyran təbiət gözəlidir, zəriflik, saflıq simvoludur, xalqımızın folklorunda nar birliyi təmsil edir. Bu da o deməkdir ki, Azərbaycan bu Oyunlara ev sahibliyi etməklə dünyaya birlik, dostluq, sülh, əməkdaşlıq mesajı verir, insanları əminamanlığa, vəhdətə, inkişafa səsləyir.

Paytaxtımızda baş tutacaq ilk Avropa Oyunlarına çox az – cəmi iki il yarım vaxt ayrılmasına baxmayaraq, Azərbaycanın birinci xanımı Mehriban Əliyevanın sədrlik etdiyi Təşkilat Komitəsinin və Əməliyyat Komitəsinin səmərəli fəaliyyəti sayəsində yarışların yüksək səviyyədə keçirilməsi üçün hazırlıq işləri başa çatır. Birinci Avropa Oyunları ilə bağlı bütün nəqliyyat, qeydiyyat, informasiya, təhlükəsizlik və digər əməliyyatlar Əməliyyat Komitəsinin baş ofisindən idarə olunacaq. Burada yerli və xarici mütəxəssislərin yüksək səviyyədə xidmət göstərmələri üçün hər cür şərait yaradılıb. Əməliyyatların yüksək səviyyədə reallaşması üçün mərkəz 24 saat işləyəcək. Atletlərə xidmət və idman şöbəsi Oyunlarda iştirak edən bütün idmançıların, məşqçilərin yerləşməsi və lazımi avadanlıqla təmin edilməsi, həmçinin onların təmsil olunduqları ölkələrin Milli Olimpiya komitələrinin rəsmilərinin qarşılanması və yerləşdirilməsi də buradan idarə olunacaq. Texnoloji Əməliyyatlar Mərkəzi və texnoloji dəstək şöbəsi də fəaliyyətə tam hazırdır.

Azərbaycan Prezidenti İlham Əliyev bu oyunların yüksək səviyyədə keçiriləcəyi, əhəmiyyəti barədə deyib: "Biz Avropa Oyunlarının Yay Olimpiya Oyunlarının səviyyəsində keçirmək əzmindəyik. Bu Oyunlar bir Avropa bayramına çevrilməlidir. Azərbaycan burada yenə də liderlik keyfiyyətlərini göstərir. Çünki Avropa Oyunlarının standartları əslində Bakıda qoyulacaq. Çünki heç vaxt bu günə qədər belə oyunlar keçirilməmişdir. Bu oyunlar müxtəlif səviyyədə keçirilə bilərdi. Ancaq biz istəyirik ki, bu möhtəşəm dostluq bayramına çevrilsin. Buna böyük ehtiyac vardır... Hesab edirəm ki, bu tədbirdə iştirak edəcək idmançılar, qonaqlar Azərbaycanla, əlbəttə ki, tanış olacaqlar və Azərbaycanın uğurlu inkişaf modelini görəcəklər".

**Asif HACIYEV,**
**Yazıçı-publisist,**
**"Qızıl qələm" mükafatı laureatı.**